

*Barat Vüsal,*
*AYB-nin Qazax filialının sədri,*
*Əməkdar incəsənət xadimi*

# *Oğuzun Qəzənfəri*

*(Ustad Qəzənfər Paşayevin 80 yaşına)*

*Yaxşı ki, Oğuzun Qəzənfəri var,*
*Yaxşı ki, Tovuzun Qəzənfəri var.*
*Yaxşı ki, bu yurdun Qəzənfəri var,*
*Fəxrsən, vüqarsan yurda, yurddaşa,*
*Ay Paşa Qəzənfər, Qəzənfər Paşa!*

*Sən xalqın, sən türkün yaraşığısan,*
*Sən haqqın-sən Görkün yaraşığısan.*
*Bağdadın, Kərkükün yaraşığısan,*
*Kim vurulmaz Dəclə, Fərat olmuşa?*
*Ay Paşa Qəzənfər, Qəzənfər Paşa!*

*Bahardı məramın, yazdı ürəyin,*
*Vicdanın nə dedi, yazdı ürəyin.*
*Çalan aşıq gərək, sazdı ürəyin,*
*Oxuyur qəlbində ozanlar qoşa,*
*Ay Paşa Qəzənfər, Qəzənfər Paşa!*

*Səni Allah deyən bəndə görürəm,*
*Füzuli çəkdiyi qəmdə görürəm.*
*Səni Nəsimidə-Səndə görürəm,*
*Oğul gərək səntək Nəsimiləşə...*
*Ay Paşa Qəzənfər, Qəzənfər Paşa!*

*Bir canın olsa da, min can adamsan,*
*Sən adam insansan, insan adamsan!*
*İlk baharsan, gül-gülüstan adamsan,*
*Gül açar qışda da əl vursan daşa,*
*Ay Paşa Qəzənfər, Qəzənfər Paşa!*

*Yaşayıb baxtımdan, paşam, əmr eylə,*
*Yaşarlıq haqqında paşam, əmr eylə.*
*Paşalıq taxtından paşam, əmr eylə,*
*Paşa kişilərlə verib baş-başa...*
*Ay Paşa Qəzənfər, Qəzənfər Paşa!*

*Bu qədər adamda həlimlik olmaz,*
*Hər adam səntək elmli olmaz.*
*Eldən doğulanlar ölümlü olmaz,*
*Bu dünya durduqca yaşa, min yaşa,*
*Ay Paşa Qəzənfər, Qəzənfər Paşa!*

ədalət.2017.24 avqust.S.4.